# Qarabağ müharibəsi qəhrəmanları fondunun gəncliyə töhfəsi

**Məmmədova Səadət**[1]

https://doi.org/10.5281/zenodo.7298064

**Xülasə**

Bu məqalənin əsas məğzi "Erməni -Azərbaycan munaqişəsindən", Azərbaycanın qəhrəman, qeyrətli oğullararının 44 gündə Azərbaycanın işğal altında olan torpaqlarını azad etməsindən bəhs edir. Azərbaycanın və ümumiyyətlə, bəşəriyyətin qədim və zəngin tarixi, mədəniyyəti, təkrarolunmaz təbiəti, əsrarəngsiz maddi-mədəni irsi, milli incəsənəti,xalq yaradıcılığı ilə fərqlənən, diqqəti cəlb edən ən gözəl guşələrindən biri Qarabağ bölgəsidir. "Ermənistan -Azərbaycan Dağlıq Qarabağ münaqişəsi " ölkəmiz üçün ən ağır problemdir . Uzun illərdir ki, biz atəşkəs rejimində yaşayırıq. Bu məsələ əvvəl-axır öz həllini tapmalı idi. Zəfər tarixlərini sərkərdələr yazırlar . Və həm də hər sərkərdə yox. Ali Baş Komandanımız İlham Əliyev kimi dahi sərkərdələr, 44 günlük Vətən müharibəsində yazdığı kimi. 2020-ci il sentyabrın 27-də "İrəli! " əmri ilə başladı rəşadətli Ordumuzun əks hücumu və düşmən ağ bayraq qaldırana kimi davam etdi.Bu qələbənin əsas yükünü də məhz onun müstəqil Azərbaycana rəhbərliyi dövründə vətənpərvərlik ruhunda tərbiyə alan gənclər çəkdilər. Mərkəzi Elmi Kitabxanası Qarabağ müharibəsi qəhrəmanları fondu, 26 iyul 2021- ci il Silahli Qüvvələrin yaranması tarixində açılışı olmuşdur. Fond Birinci və İkinci Qarabağ müharibəsi qəhrəmanlarının şərəfinə yaradılmışdır. Fondumuzda 44 gündə tarix yazan, igid oğullarımız haqqında məlumatlar toplanılır, onların ən son oxuduğu kitablar qorunub saxlanılır. Fondda onlar üçün fotoşəkillərdən ibarət guşələr yaradılıb, lövhələr asılıb.

**Açar sözlər:** Qarabağın tarixi, erməni terroru, Qarabağ fondu

## Contribution of Karabakh war's heroes fund to youth

**Abstract**

The main point of this article is about "Armenian-Azerbaijani conflict", to liberate the occupied lands of Azerbaijan by the zealous heroic sons of Azerbaijan in 44 days. One of the most beautiful corners of Azerbaijan and humanity in general, which attracts attention with its ancient and rich history, culture, unique nature, mysterious material and spiritual heritage, national art and folk creativity is Karabakh region. Armenia Azerbaijan Nagorno-Karabakh conflict is the most serious problem for our country. We have been living in a ceasefire regime for many years. This issue had to be resolved at last. The history of victory is written by warlords and not just each warlord, genius commanders like our Supreme Commander Ilham Aliyev, as he wrote in the 44-day

[1]Kitabxanaçı- AMEA Mərkəzi Elmi Kitabxanası, seadetmemmedova699@gmail.com , 0000-0002-6191-8814

Patriotic War, started on September 27, 2020 with the order "forward". The counterattack of our brave army continued until the enemy raised the white flag. The main burden of this victory was born by the young people who were brought up in the spirit of patriotism during the leadership of independent Azerbaijan the Karabakh War Heroes Fund of the Central Scientific Library was opened on July 26, 2021, on the date of the creation of the Armed Forces. The purpose of the fund was created in honor of the heroes of the First and Second Karabakh war. İt is collected the information about our brave sons, who wrote history in 44 days, and preserved the books they read most recently in our fund. Corners with photographs have been created for them in the fund, and plaques have been hung.

**Key words:** The history of Karabakh, Armenian terrorism, Karabakh fund

**Giriş**

Qarabağ Azərbaycanın ən qədim tarixi vilayətlərindən biridir. Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Qarabağın adı Azərbaycan dilindəki “qara” və “bağ” sözlərindən əmələ gəlmişdir. “Qara ” və “bağ ” sözlərinin birləşməsi Azərbaycan xalqının özü qədər qədim tarixə malikdir. Dünyanın hər yerində bu sözlərin birləşməsinin Azərbaycanın konkret ərazisinə aid edilməsi də danılmaz həqiqətdir. Bu baxımdan Qarabağ termini qara bağ yəni “böyük bağ ” , “sıx bağ”, “qalın bağ”, “səfalı bağ” və.s mənası kəsb edir. Beləliklə Qarabağın özü kimi Qarabağ sözü də Azərbaycan xalqına məxsusdur.(Mahmudov, Şükürov, 2005:11)

Qarabağ təkcə Azərbaycanın deyil ümumiyyətlə, dünyanın da ən qədim tarixə malik olan diyarlarındandır. Bu ərazidəki Azıx mağarasında ən qədim insanların yaşayış məskəni aşkar edilmişdir. Qarabağın arxeoloji cəhətdən öyrənilməsinin davam etdirilməsi burada daş dövrünün mezolit və enolit dövürlərinin də geniş inkişaf etmiş olduğunu müəyyənləşdirə bilər.
Qarabağda aşkar edilmiş hər hansı bir arxeoloji tapıntı - qədim tikililər, məişət və bəzək əşyaları, qab-qacaq və.s həm özünün istehsal tarixi, həm də üzərindəki müxtəlif naxışların həkk olunması baxımından Qarabağ əhalisinin zəngin mədəniyyətinin özünəməxsus səciyyəvi cəhətləri, sənətkarlıq səviyyəsi, xalqın tarixi təkamülü xüsusiyyətlərinin təcəssümüdür.
Bu gün dünyanın ən zəngin muzeylərində Qarabağ xalq sənətkarlığının timsalında Azərbaycan incəsənətinin bir çox gözəl nümunələri ilə rastlaşmaq olur. Bu muzeylərdən Londonun Viktoriya və Albert, Parisin Luvr, Vaşinqtonun Metropoliten, o cümlədən Vyananın, Romanın, Berlinin, İstanbulun, Tehranın ,Qahirənin zəngin kolleksiyalarında dünya mədəni inciləri ilə yanaşı, Qarabağ sənətkarlarının da yaratdığı ən müxtəlif sənət nümunilərini görmək olar. Bütün qeyd olunanlara əsaslanaraq demək olar ki, Qarabağın maddi- mədəni irsi Azərbaycan mədəniyyətinin “aynası” dır. (Qarabağlı,R,2021).

Qarabağın zəngin mədəniyyəti və incəsənəti haqqında danışarkən bu gözəl diyarın ədəbi mühiti, ab-havasından xüsusi olaraq söhbət açmaq məqsədəuyğun olardı. Tanınmış alimlərin, yazıçıların, şairlərin əksəriyyəti Qarabağ torpağındandır. Şairlərdən Qasım bəy Zakir, Molla Pənah Vaqif, Mir Möhsün Nəvvab, Xurşidbanu Natəvan və s. Yazıçılardan Yusif Vəzir Çəmənzəminli, Firidun bəy Köçərli, Süleyman Sani Axundov, Nəcəf bəy Vəzirov, Əbdürrəhim bəy Haqverdiyev və.s

Qarabağın mədəniyyəti və incəsənəti haqqında danışarkən musiqini ələlxüsus qeyd etmək lazımdır. Azərbaycan musiqisinin çox qədim tarixi vardır. Belə ki, hələ ilk yazılı ədəbi abidəmiz olan "Kitabi – Dədə Qorqud "dastanında musiqi ilə bağlı bir sıra parçaların mövcudluğu dastan boyunca müxtəlif musiqi alətlərinin adlarının çəkilməsi, Azərbaycan musiqisinin qədimliyinə əyani sübutdur. Bu musiqiçilərdən Xanəndə Cabbar Qaryağdıoğlu, Xanəndə Hacı Hüsü, Xanəndə Seyid Şuşinski, Bülbül- Murtuza Məşədi Rza oğlu Məmmədov və.s. Qarabağın yetişdirdiyi ən görkəmli mütəfəkkirlərindən biri də dünya şöhrətli bəstəkar, Şərqdə ilk operanın banisi, böyük dramaturq, ilk libretto müəllifi, musiqi komediya janrının yaradıcısı, Azərbaycan himninin müəllifi Üzeyir Hacıbəyli idi.

Qarabağ bölgəsi Şərq dünyasını əhatə edən və Avropaya pəncərə açan əfsanəvi İpək yolunun əsas keçid hissələrindən biri olmuşdur. Bunu sübut edən ən vacib dəlil Araz çayı üzərində inşa edilən Xüdafərin körpüləri, yaxud "Nicat körpüləri"dir. Qarabağ çoxlu tarixi abidələr ilə məşhurdur: Ağdam da "Qutlu Musa türbəsi", Kəlbəcər də "Gəncəsər monastırı", Ağdam da "Üzərliktəpə", Şuşa da "Şuşa Dövlət Tarix-Memarlıq Qoruğu", Laçın da "Sisərnəvəng monastırı" , Füzuli də "Arğalı türbəsi" , "Şeyx Babı türbəsi", Xocavənd də "Amaras monastırı" , Qubadlı da "Gürcülü türbəsi", Laçın da "Məlik Əjdər türbəsi", Şuşa da "Şuşa qalası", "Qarabağ xan sarayı", "Aşağı Gövhər ağa məscidi", "İki mərtəbəli karvansaray", "İsa bulağı", "Şirin su hamamı", "Seyid Şuşinskinin evi", "Vaqif türbəsi", Zəngilan da "Məmmədbəyli türbəsi", "Dairəvi qüllə", "Şərifan yaşayış yeri və sərdabələri", Füzuli də "Mirəli türbəsi", "Qarğabazar karvansarası", Ağdam da "Xanoğlu türbəsi", "Papravənd türbəsi" , "Maşallah məscidi", Cəbrayılda "Sultan Allahverdi hamamı", "Çələbilər məscidi", "Qərb məscidi", "Şıxlar türbəsi", Füzulidə "Pənahəli xan məscidi", "Divanlılar türbəsi", "Qaraxanbəyli məscidi", Xocavənd də "Xocavənd türbəsi", "Həzrəti Əbülfəzl ağa məscidi", Qubadlı da "Yusifbəyli məscidi ", "Cümə məscidi", "Həzrəti Həvvaxanım türbəsi", Laçın da "Güləbird türbəsi", "Həmzə Sultan sarayı", "Soltan Əhməd sarayı", "Şeyx Əhməd türbəsi", Şuşa da" Turşsu bulağı", "Xoca Mərcanlı bulağı" və.s . (Qarabağlı,R,2021).

Qarabağ maraqlı xalçaları ilə məşhurdur: Muğan, Bağçadagüllər, Ləmbəran , Xanqərvənd , Xanıq, Xantirmə, Çələbi ,Şabalıd-buta və.s . (Quliyeva,Pirquliyeva 2021:74)
Qarabağ atları ilə də dünya da məşhurdu: Qarabağın Xan zavodlarında, əsasən 4 növə aid atlar saxlanılırdı - Maymun, Qarnıyırtıq, Əlyetməz və Toxmaq . Qarabağ atları əsasən qızılı- kürən və kəhər rəngli, dözümlü, ortaboylu, bədən quruluşu mütənasib, ilxı şəraitinə davamlıdırlar. Qarabağ atları bir çox beynəlxalq sərgilərdə təmsil olunmuş və uğurlu yerlər tutmuşdur. (Quliyeva,Pirquliyeva, 2021:109). Azərbaycanın və ümumiyyətlə, bəşəriyyətin qədim və zəngin tarixi, mədəniyyəti, təkrarolunmaz təbiəti, əsrarəngsiz maddi-mədəni irsi, milli incəsənəti,xalq yaradıcılığı ilə fərqlənən, diqqəti cəlb edən ən gözəl guşələrindən biri Qarabağ bölgəsidir.
Təsərrüfat və mədəni həyatın inkişafı ilə yanaşı, etno -siyasi proseslər də davam edir. Azərbaycanın cənubunda qüdrətli Manna dövləti e.ə IX-VI əsrlər meydana gəlir. Bu dövürdə, ümumiyyətlə Cənubi Qafqazda, Zaqafqaziyada erməni etnosu yox idi. (Mahmudov, Şükürov, 2005)

Ermənilərin ilk dəfə Cənubi Qafqazda Zaqafqaziyada peyda olmaları təxminən e.ə II əsrdən sonralara təsadüf edir . Onların regiona daxil olması ilə yerli dövlətlərə və xalqlara qarşı

təcavüzkar fəaliyyətləri də başlanır . Qarabağın tarixində əsas dəyişikliklər Ərəb xilafətinin işğalları və bunun nəticəsində Albaniya dövlətinin aradan qaldırılması ilə baş verir.
Qarabağın bu hissəsində yaşayan əhali əvvəldən erməni olmamış, əksinə yerli-Azərbaycan - alban tayfaları olmuşlar və sonradan erməniləşdirilmişlər, daha doğrusu əvvəlcə qriqoriyanlaşdırılmış, sonra isə erməniləşdirilmişlər. (Mahmudov, Şükürov, 2005:22) 1805-ci il Kürəkçay müqaviləsi ilə Qarabağ xanlığı faktiki olaraq Rusiyaya ilhaq edildi. Xan hakimiyyətinin hələ 17 il də saxlanması müəyyən strateji məqsəd daşıyırdı. 1829-cu il Ədirnə müqaviləsi ilə Osmanlı imperiyasından da ermənilərin yenicə işğal olunmuş Şimali Azərbaycan torpaqlarına köcürülməsi həyata keçirilməyə başlayır. Ermənilərin köçürülməsinin əsas istiqamətlərindən biri Qarabağ ərazisi idi.

Polyak əsilli tanınmış rus dramaturq, yazıçı və diplomatı - A.S.Qriboyedovun Rusiya imperatoruna məktubundan qarşımıza belə bir fakt çıxdı. Əlahəzrət, olmaya mərkəzi rus torpaqlarında ermənilərin məskunlaşmasına icazə verəsiniz. Onlar elə tayfadılar ki, bir neçə on il yaşadıqdan sonra dünyaya hay-küy salacaqlar ki, bura bizim qədim dədə-baba torpaqlarımızdır. (.Mahmudov, Şükürov, 2005:33). Rəsmi məlumatlara əsasən, 1828-1830-cu illər arasında, yəni cəmi 2 il ərzində, Şimali Azərbaycana o cümlədən Qarabağa İrandan 40 min, Osmanlı imperiyasından 90 min erməni köçürüldü. Qeyri-rəsmi erməni köçkünləri ilə birlikdə onların sayı 200 mini ötmüşdü. Köçürülmədən sonra Qarabağın etnik tərkibində ermənilərin sayı artmağa başladı.
XIX yüzilin 30-cu illərindən sonra da ermənilərin kütləvi surətdə Şimali Azərbaycan torpaqlarına, o cümlədən Qarabağa köçürülməsi davam etdirilirdi. Rus qafqazşünası N.Şabrov məhz buna görə yazırdıki “Zaqafqaziyada” yaşayan 1 milyon 300 min nəfər ermənin 1 milyonu yerli deyildir. Və onlar vilayətə bizim tərəfimizdən köçürülüb. (Mahmudov, Şükürov, 2005:36)
Erməni alimi Zaven Korkodyan “Sovet Ermənistanının əhalisi 1831-1931” adlı kitabında yazırdı. 1883-cü ildə İrəvan şəhərinin 18.766 nəfər əhalisinin 15.992 nəfəri, 1886- cı ildə isə 27.246 nəfərindən 23.626 nəfəri, yəni 85.2 faizi azərbaycanlı olmuşdur. (Mahmudov, Şükürov, 2005:70)
1923-cü ildə Qarabağın əsasən ermənilərin məskunlaşdığı dağlıq hissəsinin Ermənistan SSR-ə birləşdirilməsi məsələsi qaldırıldı. Lakin bu ərazinin Ermənistan SSR ilə ümumi sərhədlərinin olmaması və Ermənistandan yalnız azərbaycanlıların yaşadığı Qubadlı, Laçın, Kəlbəcər və Dəstəfur rayonları ilə ayrılması səbəbindən, partiya orqanlarının göstərişi əsasında Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin 7 iyul 1923-cü il tarixli dekreti ilə mərkəzi Xankəndi, indi Stepanakert adlanan Dağlıq Qarabağ Vilayəti yaradıldı. (Abbasov.N,2021).

Beləliklə, Dağlıq Qarabağ Muxtar Vilayəti ərazi cəhətdən heç vaxt Ermənistan SSR-ə bitişik olmamışdır və hazırda da bitişik deyildir. Tarixi Qarabağın başqa rayonlarından fərqli olaraq, Dağlıq Qarabağ Muxtar Vilayətinin əldə etdiyi iqtisadi üstünlük muxtar vilayət statusunun siyasi üstünlüyünün artması ilə də müşayiət olunurdu. Azərbaycanlı– müsəlman əhalinin yaşadığı aran rayonları, əsasən xiristian - ermənilərin yaşadığı Dağlıq Qarabağ Muxtar Vilayətinə nisbətən sovet rejiminin təziqlərinə, ayrı – seçkiliyə daha çox məruz qalırdı. Bütün bunlar Moskvadan və Ermənistan SSR-dən kömək alan Dağlıq Qarabağ ermənilərinin etnik eqoizmini artırır, azərbaycanlılara qarşı açıq həqarət mühiti yaradırdı. Beləliklə, 1905-1906 və 1918-1920-ci illərdə olduğu kimi, xüsusi mərkəzlərdən idarə edilən ermənilər daha yaxşı təşkil olunurdu. Əlaltdan ermənilərin sürətlə silahlandırılması da həyata keçirilirdi. Bu amillər başqa şərtlərlə birlikdə, sonralar Dağlıq Qarabağ Muxtar Vilayəti ətrafındakı digər rayonların Ermənistanın hərbi qüvvələri

və Dağlıq Qarabağın erməni seperatçı-terrorçuları tərəfindən işğalında həlledici faktorlardan oldu.

Ermənilər Azərbaycan torpaqlarına, o cümlədən Dağlıq Qarabağa qarşı iddiaları onların “Böyük Ermənistan” yaratmağa yönəlmiş strateji planlarının tərkib hissəsidir. Ona görə də ermənilər, “ənənələrinə” sadiq qalaraq, həmişə əlverişli şərait yaranan kimi bu planın reallaşdırılması uğrunda mübarizəyə başlamışlar. SSRİ-də 1985-ci ildə erməniпərəst M.S.Qorbaçovun hakimiyyətə gəlməsi ilə erməni seperatçıları növbəti dəfə yenidən fəallaşdılar.
Bu dəfə sovet rəhbərliyinin silahlı erməni seperatçılarını-terrorçularını himayə və müdafiə etdikləri daha tez aşkara çıxdı. Dağlıq Qarabağ Muxtar Vilayəti ilə bağlı məxfi planı həyata keçirmək üçün M.S.Qorbaçov ilk addım olaraq, onun qarşısında ən qüdrətli maneə olan Heydər Əliyevi Siyasi Bürodan uzaqlaşdırdı.

Samuel. A .Uims “Ermənistan terrorçu: “xristian” ölkənin gizlinləri” ermənilərin böyük fırıldaq seriyaları kitabında yazır, “Qarabağın tarixi kökləri antik dövrə gedib çıxır. Bu, Azərbaycanın tarixi əyalətlərindən biridir. (Mahmudov, Şükürov, 2005:87)
Bu region “Azərbaycanın” vacib siyasi, mədəni və mənəvi mərkəzidir. Bədnam, “Qarabağ problemi” ermənilər tərəfindən saxta iddialar əsasında yaradılmışdır”.
Nəhayət, Moskva Dağlıq Qarabağ Muxtar Vilayətini Azərbaycan SSR-in tərkibindən çıxartmaq istiqamətində daha bir addım atdı: SSRİ Ali Soveti Rəyasət Heyəti 1989-cu il yanvarın 12-də “Azərbaycan SSR-in Dağlıq Qarabağ Muxtar Vilayətində xüsusi idarəçilik formasının tətbiqi haqqında” qərar qəbul etdi.

1988-ci il fevral hadisələrindən sonra Dağlıq Qarabağ Muxtar Vilayətinin seperatçı -terrorçu qruplaşmaları və Ermənistan silahlı qüvvələri Dağlıq Qarabağın ələ keçirilməsi uğrunda hərbi əməliyyatlara başladılar. SSRİ Silahlı Qüvvələrinin Ermənistan və Dağlıq Qarabağ Muxtar Vilayətində yerləşən hissələri də onlara qoşuldular. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə müasir tarixin ən faciəli hadisəsi baş verdi. Erməni hərbi birləşmələri Xocalıda Rusiyanın 366-cı motoatıcı polkunun əsgərləri ilə birlikdə azərbaycanlılara qarşı dəhşətli soyqırımı törətdi. Bu, İkinci Dünya müharibəsində faşizmin törətdiyi dəhşətli qırğınlardan sonra müasir dövrdə erməni-seperatçı-terrorçuları ilə birlikdə Ermənistan hərbi qüvvələrinin insanlığa qarşı törətdiyi ən kütləvi və ən dəhşətli soyqırımıdır. 1992-ci ilin mayında ermənilər Şuşanı və Laçını ələ kecirdilər. 1993-cü ilin aprelində Kəlbəcər işğal olundu. 1993-cü ilin iyul- oktyabr ayları arasında Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarını işğal etdilər. Ermənilər işğal etdikləri torpaqları “viran qoymaq taktikasına” əl atmışdılar. Müharibədə 20 min azərbaycanlı şəhid olmuş, 100 min nəfər yaralanmış, 50 min nəfər əlil olmuşdu . Qaçqın və köçkünlərin sayı milyonu keçmişdi. Rəsmi məlumata görə, erməni işğalçıları tərəfindən 4.861 nəfər azərbaycanlı, o cümlədən 314 qadın, 58 uşaq və 255 qoca əsir və girov götürülmüşdü. Erməni faşistləri əsir və girovların həqiqi sayını beynəlxalq humanitar təşkilatlardan gizlədir, onlarla qeyri-insani, amansız rəftar edir, qul kimi işlədir, təhqir edir, alçaldırdılar. (1 .Mahmudov, Şükürov, 2005:94)

“Ermənistan -Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ” ölkəmiz üçün ən ağır problemdir . Uzun illərdir ki, biz atəşkəs rejimində yaşayırıq. Təssüflər olsun ki, bu məsələ ilə bilavasitə məşğul olan ATƏT-in Minsk qrupunun fəaliyyəti heç bir nəticə vermirdi. Biz halədə ümidlərimizi itirmirdik. Hər

zaman ümid edirdik ki, Həmsədrlər bu məsələ ilə daha ciddi şəkildə, məsuliyyətlə məşğul olacaqlar. Bu məsələ əvvəl-axır öz həllini tapmalı idi.
Bu problem yalnız bir neçə prinsiplər, beynəlxalq hüquq normaları əsasında həll oluna bilərdi Azərbaycanın torpaqları işğaldan azad olunmalı, bir milyon qaçqın və köçkün öz doğma yurdlarına qayıtmalı, ölkəmizin ərazi bütövlüyü bərpa edilməli idi. Azərbaycan xalqı heç vaxt bu vəziyyətdə, torpaqlarının işğal altında qalması ilə barışmırdı. Hamı bilirdi ki, sülh tərəfdarı olmağımıza baxmayaraq, müharibənin yenidən başlanmamasını və bu məsələnin sülh yolu ilə həllini istəməyimizə baxmayaraq, bizim səbrimiz də tükənirdi. Azərbaycan öz doğma torpaqlarını, nəyin bahasına olursa - olsun, azad edəcəkdir.

**Nəticə**

Zəfər tarixlərini sərkərdələr yazırlar. Və həm də hər sərkərdə yox. Ali Baş Komandanımız İlham Əliyev kimi dahi sərkərdələr, 44 günlük Vətən müharibəsində yazdığı kimi. 2020-ci il sentyabrın 27-də “İrəli! ” əmri ilə başladı rəşadətli Ordumuzun əks hücumu və düşmən ağ bayraq qaldırana kimi davam etdi. Ulu öndər Heydər Əliyev xalqımıza müraciətində demişdi ki, “Mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları , işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümid bəsləyirəm” . Bizə bu qələbə sevincini yaşadan müzəffər Ordunu da müdrik dövlət başçımız özü qurmuşdu, dünyanın ən qüdrətli ordularından birinə də Prezident İlham Əliyev çevirmişdi, qüdrətini yenilməzliyə də Ali Baş Komandanımız özü çatdırdı !
Bu qələbənin əsas yükünü də məhz onun müstəqil Azərbaycana rəhbərliyi dövründə vətənpərvərlik ruhunda tərbiyə alan gənclər çəkdilər. Vətən üçün hər zaman canından keçməyə hazır olan gənclər.

Böyük qələbədən sonra AMEA-nın (Azərbaycan Milli Elmlər Akademiyası) rəhbərliyi və MEK( Mərkəzi Elmi Kitabxanasının)-in baş direktoru professor Məmməd Əliyevin təşəbbusü ilə Azərbaycan da kitabxana sistemində ilk dəfə olaraq, MEK-də Qarabağ müharibəsi qəhrəmanlarını əbədiləşdirmək üçün yeni bir Fond fəaliyyətə başladı.
MEK(Mərkəzi Elmi Kitabxanasının)-də QMQF-u (Qarabağ müharibəsi qəhrəmanları fondu), 26 iyul 2021-ci il Silahli Qüvvələrin yaranması tarixində açılışı olmuşdur. Fondun məqsədi Birinci və İkinci Qarabağ müharibəsi qəhrəmanlarının, əbədiyyətə qanları ilə imza atan, verilmiş ömür payını gələcək nəsillərin xoşbəxtliyinə bağışlamış igid oğulların şərəfinə yaradılmışdır. O, oğullarki, şərəfli yolu seçib doğru yolu seçib ya qalib, ya qazi, ya şəhid olaq deyib, döyüşə girən düşmənə meydan oxuyan üç rəngli bayrağımızı Qarabağda dalğalandırıb. Fondumuzda 44 gündə tarix yazan, igid oğullarımız haqqında məlumatlar toplanılır, onların ən son oxuduğu kitablar qorunub saxlanılır. Fondda onlar üçün fotoşəkillərdən ibarət guşələr yaradılıb, lövhələr asılıb.

Fondun foesində sağ tərəfdə guşədə doğum tarixi həmin gundə olan şəhidlərimizin dosyeləri və çərçivədə fotoşəkilləri sərgilənir. Fondun foesində sol tərəfdə infokoşk aparat yerləşdirilib. Orada isə doğum tarixi həmin gün olan şəhidlərin videoslaydları yerləşdirilib. Fondun girişində sağ tərəfdə Ümummilli Lider Heydər Əliyevin 90-cı illərdə gözəl diyarımız olan Qarabağa səfərini və işğal altından azad edilmiş torpaqlardakı Cənab Prezidentimiz İlham Əliyevin və Vitse Prezident Mehriban Xanım Əliyevanın səfərləri əks olunub. Guşənin alt hissəsində QMQF -nun (Qarabağ

müharibəsi qəhrəmanları fondu) acılışını , Anım günü və 8 Noyabr Zəfər günü tədbirlərini əks etdirən fotoşəkillər yerləşdirilib. Fondun sol tərəfində isə Birinci Qarabağ, İkinci Qarabağ, Aprel döyüşləri, Tovuz döyüşlərinin şəhid Milli Qəhrəmanlarının fotoları yerləşdirilib. Aşaği hissəsində isə "Şəhidlərin Şəxsi Kitablarından" ibarət guşədir. Fondun bir hissəsində Qarabağın tarixi, ədəbiyyatı və mədəniyyətini əks etdirən azərbaycan, rus və ingilis dilində kitablar yerləşdirilib.
Fondda bir hissə şəhidlərin haqqında olan qovluqlardan ibarət guşədir. Bu qovluqlarda şəhid ailələri ilə əlaqə saxlayaraq, onlardan şəhidlərimizin tərcümeyi-hal və qazandığı uğurları əks etdirən diplom, fəxri fərman və medallaları yerləşdirilir. Fondun ikinci hissəsində divarda Azərbaycan xəritəsi sərgilənir. Xəritənin üzərində İkinci Qarabağ savaşında canından keçərək şəhid olan 3000 qədər Qəhrəmanlarımızın adi, soyadı, ata adı əks olunub. Xəritənin alt hissəsində isə Fondumuza qonaq gələn şəhid ailələrinin yaxını şəhidin, çərçivədə fotoları sərgilənir. Fond da "Şəhidlərin Şəxsi kitablarından" adlı guşə yaradılmışdır .

Bu guşə də Şəhidlərimizin səxsi kitabları sərgilənir. Kitabları açıb oxuyarkən orada şəhidimizin öz xətti ilə anasına yazdığı şeri, yoldaşına yazdığı son sözləri olan məktubu, hətta evə gedərkən alınacağı ərzaq siyahısı və s. əks olunur. Şəhidlərimizin şəxsi kitablarından olan guşədəki Şəhidlərimizin mütaliə etdiyi kitablarla tanış olaq: Şəhid General Polad Həşimovun oxuduğu, Ziya Bünyadovun "Azərbaycan VII-IX əsrlərdə" kitabı, Şəhid Polkovnik Babək Səmidlinin oxuduğu "Abdülhamid-in akıl oyunları" kitabı, "Müsəlmanın iman əsasları" kitabları, Şəhid Polkovnik-leytenant Musayev Sədinin oxuduğu "Qurani Kərim" kitabı, Şəhid Polkovnik-leytenant Əkbərov Orxanın oxuduğu "Azərbaycan ədəbiyyatında dedektiv janr" kitabı, Şəhid kapitan Cabbarov Seymurun oxuduğu Napoleon Hillin "Düşün və varlan" kitabı, Şəhid mayor Vəliyev Vüsalın oxuduğu, Məmməd Səid Ordubadinin "Qılınc və qələm", Fərman Kərimzadənin "Xudafərin körpüsü" kitabları, Şəhid Əfəndiyev Adilin oxuduğu "F.M.Dostoyevski seçilmiş əsərləri", Şəhid Hüseynov Amilin oxuduğu "F.Dostoyevskinin seçilmiş əsərləri" kitabı, Şəhid Həşimli Cəmilin "46 bənövşə" , Şəhid İbrahimli Məmmədəlinin oxuduğu Ziqmund Freydin "Psixoanalizlə ilkin tanışlıq" kitabı, Şəhid Orucov Muşviqin oxuduğu "Şıxəli Qurbanovun seçilmiş əsərləri kitabı, Şəhid Qüreyşli Firuzun oxuduğu Elxan Elatlı Mərtəbələr romanı, Şəhid Şalıyev Ceyhunnun oxuduğu Çingiz Abdullayevin "Связной из Багдада"kitabı, Şəhid Axundov Sənan oxuduğu Nihal Atsızın "Bozqurdlar ölür, dirilir" romanı, Şəhid İbrahimli Məmmədəlinin Nihal Atsızın "Ruh adam" romanı, Şəhid Kazımov Vüsalın oxuduğu "Şarl de Koster Ulenşpigel və lamme qudzak" əfsanəsi, Şəhid Məmmədov Turalın oxuduğu "Cek London seçilmiş əsərləri", Şəhid Osmanlı Teymurun oxuduğu Filip Kotlerin "A-dan Z-yə Marketinq" , Şəhid Həşimli Cəmilin oxuduğu Əlisəfa Azayevin "Qəddarlıq" , Şəhid Əliyev Ziyadxanın oxuduğu Çalğayan Yılmazın "Börü", Şəhid Hacıyev Toğrulun oxuduğu Alber Kamünün "Yad" povest, Şəhid Feyzullayev Seyfullanın oxuduğu Nevzat Tarhanın "Kamil insan modeli", İbrahim Məmmədlinin oxuduğu "Əmir Teymurun vəsiyyətləri", Şəhid Həsənquliyev Nicatın oxuduğu Çingiz Abdullayevin "Mavi mələklər", Şəhid Vahabzadə Mikayılın oxuduğu Ənvər Məmmədxanlının "Babək" əsəri, Şəhid Axundov Sənanın oxuduğu Bora İyiatın "Bir vatanı karşılıqsız sevmək", Şəhid Məmmədzadə İlkinin oxuduğu Kazuo İşiquronun"Məni Heç vaxt tərk etmə", Şəhid Məmmədov Sahilin oxuduğu "Parçalanmış millətin harayı" kitabı, Elxan Elatlının "Qisas gecəsi", Şəhid Məmmədov Xəyalın oxuduğu Elxan Elatlının "Görünməyən izlər " kitabı, Şəhid Məmmədzadə İlkinin özünün yazıb çap etdirdiyi "Karp" və "Azərbaycanın şirin su bulaqları" kitabları, Şəhid Muradov Ziyadın isə şəhid olmadan öncə yazdığı şerlərdən ibarət materiallar ailəsi tərəfindən toplanaraq çap edilmiş və bizim fonda hədiyyə edilmişdir.

Vətənin bütövlüyü üçün canından və qanından keçənlər, bizi əzəli yurd yerlərimizə qovuşduranlar, namərd gülləsinə tuş gələndə də "Təki Vətən yaşasın!", - deyərək şəhadətə qovuşanlar , yaralansalar da döyüş meydanını tərk etməyərək, yaralı döyüş yoldaşlarını çiyinlərinə alaraq, Şuşa qalasına əliyalın qalxaraq, bütün müharibə boyu ölümün gözünə dik baxan Şəhid və Qazi olmalarini göz önünə alan və Zəfəri yaşadanların hər birinə Azərbaycan vətəndaşı olaraq borcluyuq**.**

**Ədəbiyyat**


Mahmudov,Y.Şükürov,K.(2005).Qarabağ real tarix ,faktlar,sənədlər.Bakı:Təhsil

Quliyeva,V.Pirquliyeva,Q.(2021).Qarabağ tarixi-mədəni irsimizdən . Bakı

Qarabağ əsrlərin salnaməsi .(2016).İrs

Əliyeva,L.(2021).Qarabağ münaqişəsi:Azərbaycanın milli mədəni irsi.Bakı:Afpoliqraf

Mahmudov,Y.Şükürov,K .(2005).Qarabağ:Suallar və faktlar.Bakı:Qismət

Qarabağlı,R.(2021).Qarabağın memarlıq irsi. Bakı:Gənclik

Abbasov,N.(2021).Qarabağın qara bağı. Bakı:Afpoliqraf